**«İqtisadi münasibətlər inkişaf etdikcə idarəetmə də təkmilləşməlidir»**

Bakı Biznes Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor İbad Abbasov:

«Region şəraitində belə yüksək infrastruktura malik bir təhsil ocağının fəaliyyət göstərməsini təqdir edirəm. Mərkəzin iş şəraiti və elmi bazası qənaətbəxş səviyyədədir, burada ciddi iqtisadi mövzular ətrafında maraqlı «dəyirmi masa»ların, konfransların təşkili də müsbət hadisədir.

Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsində xüsusi yeri olan vergi sisteminin davamlı şəkildə təkmilləşdirilməsi son dərəcə vacib məsələdir. Hesab edirəm ki, Vergilər Nazirliyi bu sahədə çox səmərəli çalışır və burada idarəçilik müasir menecment prinsipləri əsasında qurulmuşdur. Bu da təbiidir - biz bu gün idarəetmənin yüksək səviyyədə təşkilindən danışırıqsa, bu prosesin elmi əsaslar əsasında qurulmasına ciddi yanaşmalıyıq. Bu mənada, Tədris Mərkəzində yüksək səviyyəli tədris üçün hər cür şəraitin yaradıldığı qənaətindəyəm».